

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 114 (21.015)

18 iyun 2014-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



İyunun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Afinada rəsmi qarşılanma mərasimi olmuşdur.

Həmin gün Afinada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyasın təkbətək görüşü olmuşdur. Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyasın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

İyunun 16-da geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan-Yunanıstan sənədlərinin imzalanması mərasimi keçirilmişdir. Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyas mətbuata bəyanatlarla çıxış etmişlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyunun 17-də Yunanıstana dövlət səfəri başa çatmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü il 16 iyun tarixli Sərəncamı ilə Azərbaycan səhiyyəsinin inkişafındakı xidmətlərinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasının səhiyyə işçiləri də vardır.

**“Əməkdar Həkim”**

Rzayev Arif İsa oğlu

**“Əməkdar Tibb İşçisi”**

Məmmədova Validə Abbas qızı

Muxtarova Roza İmran qızı

**“Tərəqqi” medalı ilə**

Abbasova Nəcibə Ələkbər qızı

Əliyeva Bəhriyə Cabbar qızı

# Heydər Əliyev adına Hərbi Liseydə tədbir keçirilmişdir



İyunun 17-də Heydər Əliyev adına Hərbi Liseyin yaradılmasının 10 illiyi və lisey kursantlarının 2014-cü il buraxılışı münasibətilə tədbir keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və tədbir iştirakçıları ümummilli liderimiz Heydər Əliyevin Hərbi Liseydəki büstü önünə gül qoymuş, dahi şəxsiyyətin xatirəsini dərin ehtiramla yad etmişlər.

Azərbaycan Respublikası müdafiə nazirinin müavini, Əlahiddə Ümumqoşun Ordusunun komandanı, general-leytenant Kərəm Mustafayev Ali Məclisin Sədrinə mərasimə hazırlıq barədə raport vermişdir.

Ali Məclisin Sədri kursantları salamlamışdır.

Şəxsi heyət orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət himnini ifa etmişdir.

Kursant Əmrah Məmmədov çıxış edərək demişdir: “Qarşımızda peşəkar zabit kimi yetişmək, ölkəmizin ərazi bütövlüyünü qorumaq kimi şərəfli vəzifələr durur. Bu gün müstəqil dövlətimizin təminatçısı olan qüdrətli ordumuz vardır. Bu ordu sıralarında zabit kimi xidmət etmək ən böyük arzumuzdur. Gələcək təhsil illərində səylə çalışacaq, hərbi biliklərə dərindən yiyələnəcək, Hərbi Liseyin məzunu adını şərəflə doğruldacağıq”.

Azərbaycan Respublikası müdafiə nazirinin müavini, Əlahiddə Ümumqoşun Ordusunun komandanı, general-leytenant Kərəm Mustafayev Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənovun təbrik məktubunu oxumuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Heydər Əliyev adına Hərbi Liseyin 14-cü buraxılışının əlamətdar dövrdə – Hərbi Liseyin yaradılmasının 10-cu ildönümündə keçirildiyini bildirmiş, ulu öndərin adını daşıyan təhsil müəssisəsinin 10-cu ildönümü və Hərbi Liseyin 14-cü buraxılışı münasibətilə bütün kursant, zabit və müəllim heyətini, tədbir iştirakçılarını təbrik edərək demişdir: “Müstəqil Azərbaycanda ordu quruculuğu ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi yolla gedir. Bu yol Azərbaycan Respublikası Silahlı Qüvvələrinin möhkəmləndirilməsi yoludur. Onun ən mühüm istiqamətlərindən birini isə milli hərbi kadrların hazırlanması təşkil edir”.

Ali Məclisin Sədri demişdir: “Ölkəmiz müstəqillik əldə etdikdən və ümummilli liderimizin ali hakimiyyətə qayıdışından sonra ordu quruculuğu daha geniş vüsət almış, maddi-texniki bazanın gücləndirilməsi ilə yanaşı, hərbi kadrların hazırlanmasına da üstün istiqamət verilmişdir. Naxçıvanlı gənclərin hərbi təhsil almalarının zəruriliyindən danışan ümummilli liderimiz Heydər Əliyev deyirdi ki: ***“Azərbaycan dövlət müstəqilliyini ilbəil möhkəmləndirərək eyni zamanda ordusunun zabit heyətini peşəkar kadrlarla təmin etməyə çalışır. Bu baxımdan Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının yaradılması məsələsi meydana çıxdı.***

Ardı 2-ci səhifədə






Hərbi Liseyin rəisi, polkovnik Elman Orucov çıxış edərək demişdir ki, Heydər Əliyev adına Hərbi Lisey Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ixtisaslı və peşəkar kadr təminatı istiqamətində fəaliyyətini uğurla davam etdirir. Hərbi Lisey göstərilən dövlət qayğısı sayəsində qısa zaman kəsiyində böyük inkişaf yolu keçmiş, kursantların yaşayışı, təhsili, sağlamlığı, fiziki tərbiyəsi üçün hərtərəfli şərait yaradılmışdır. Hərbi təhsil müəssisəsində tədrisin keyfiyyətini daha da artırmaq, kursantları mənəvi-psixoloji cəhətdən hazırlıqlı yetişdirmək üçün ardıcıl tədbirlər görülür.

Qeyd olunmuşdur ki, bu gün məqsəd təkcə fiziki cəhətdən sağlam, savadlı, yetkin gənclər deyil, həm də Vətənə, dövlətə, milli dəyərlərə, ən əsası isə ümummilli lider Heydər Əliyevin ideyalarına və Ali Baş Komandana sədaqətli gənclər yetişdirməkdir. Hərbi Liseydə kursantlarla aparılan iş də ümummilli liderimizin irsini, onun ideyalarını dərindən öyrənmək və gələcək xidmətdə tətbiq etmək prinsipi üzərində qurulmuşdur. Hərbi Liseyin rəisi təhsil ocağının maddi-texniki bazasının mütəmadi olaraq gücləndirilməsinə, kursantların təhsilinə və hazırlanmasına göstərdiyi qayğıya və buraxılış mərasimindəki iştirakına görə Ali Məclisin Sədrinə minnətdarlığını bildirmişdir.



Çıxış edən valideyn Nadir İsmayılov demişdir ki, kursantların peşəkar hərbçi kimi yetişməsi, Milli Ordumuzda ləyaqətlə xidmət etməsi valideynlərin ən böyük arzusudur. Bu gün Hərbi Liseydə vətənpərvər, ölkəsinə və xalqına layiqli övladlar yetişdirilir. İstər yaradılan təhsil şəraiti, istərsə də kursantların yaşayışı və fiziki hazırlıqlarının yüksək səviyyədə təşkili bunu deməyə əsas verir ki, qədim Azərbaycan torpağı olan Naxçıvan bu gün bütün sahələrdə olduğu kimi, hərbi kadrların hazırlanmasına da öz töhfəsini verir.





*Azərbaycan ilə onun ayrılmaz hissəsi olan Naxçıvan arasında coğrafi nöqteyi-nəzərdən müəyyən çətinliklər yaranıbdır. Bu çətinliklər Naxçıvan Muxtar Respublikasında əlavə tədbirlər görməyimizi tələb edirdi. Bütün bunları nəzərə alaraq, biz burada Cəmşid Naxçıvanski adına Hərbi Liseyin filialını yaratdıq. İnanıram ki, Naxçıvan filialı qısa bir zamanda burada yeni bir hərbi liseyin yaranması üçün əsas qoyubdur".*

Gələcəyə böyük ümidlərlə söylənən bu fikirlər reallığa çevrilmiş, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004-cü il 27 fevral tarixli Sərəncamı ilə 1998-ci ildə yaradılan Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının bazasında Heydər Əliyev adına Hərbi Lisey yaradıldı. Dövlət başçısının diqqət və qayğısı ilə Hərbi Lisey qısa zamanda böyük inkişaf yolu keçmişdir. Burada nümunəvi hərbi tədris şəhərciyi təşəkkül tapmış, kursantların yaşayışı, təhsili, sağlamlığı və fiziki tərbiyəsi üçün lazım olan bütün tədbirlər görülmüşdür. Heydər Əliyev adına Hərbi Lisey ötən dövrlər ərzində tədris və tərbiyə sahəsində mühüm nailiyyətlər əldə etmişdir. Filial kimi 56 kursantla fəaliyyətə başlayan liseydə bu gün 656 kursant təhsil alır. Ötən dövrlərdə Hərbi Liseyin məzunlarından 1857-si ali hərbi məktəblərə qəbul olunmuşdur. Müdavimlərdən min nəfərə yaxını isə hazırda Azərbaycan Respublikasının Silahlı Qüvvələrində zabit kimi xidmətlərini davam etdirirlər".



Ali Məclisin Sədri demişdir: "Biz bu gün Heydər Əliyev adına Hərbi Liseyin kursantlarına baxarkən, bu məktəbin məzunlarının hərbi xidmətdəki fəaliyyətlərini izləyərkən möhkəm iradəyə malik vətənpərvər gəncliyi görür, istər-istəməz doğma Azərbaycanımızın gələcəyini düşünür və bununla iftixar hissi keçiririk. Heydər Əliyev adına Hərbi Liseyin kursantı olmaq böyük məsuliyyət və şərəf işidir. Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin dediyi kimi: ***"Heydər Əliyev adına Hərbi Liseydə oxumaq böyük şərəfdir və böyük məsuliyyətdir. Bu liseydə təhsil alan gənclər gələcəkdə bizim ordumuzda xidmət edəcəklər. Azərbaycanın müstəqilliyinin keşiyində duracaqlar".***

"Azərbaycanın müstəqilliyi xalqımızın sahib olduğu ən böyük milli dəyərdir. Bu dəyəri qorumaq hər birimizin müqəddəs borcudur", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, dövlətçiliyə sədaqət, dövlət müstəqilliyinin qorunması doğma Azərbaycanımızın bu günü və gələcəyi, bütövlüyü və suverenliyi üçün vacib şərtdir. Böyük dövlət xadimi Heydər Əliyev deyirdi ki: ***"Bizim hamımızın bir Vətəni var – bu, Azərbaycandır. Hamımız bir torpaqda yaşayırıq – bu, Azərbaycan torpağıdır. Azərbaycan torpağının hər guşəsi hər birimiz üçün müqəddəs yerdir".***

Ali Məclisin Sədri bir daha kursantları təbrik etmiş, gələcək təhsildə və xidmətdə onlara uğurlar arzulamışdır.



Sonra Ali Məclisin Sədri Heydər Əliyev adına Hərbi Liseyin müəllimlərinə "Naxçıvan Muxtar Respublikasının əməkdar müəllimi" fəxri adlarının döş nişanlarını və vəsiqələrini, "Rəşadətli əməyə görə" nişanını, eləcə də liseyin əlaçı kursantlarına attestatları və Hərbi Liseyə xatirə hədiyyəsini təqdim etmiş, zabit, müəllim və kursantları mükafatlandırmışdır.

Hərbi Liseyin rəisi, polkovnik Elman Orucov Heydər Əliyev adına Hərbi Liseyin inkişafına göstərdiyi diqqət və qayğıya görə şəxsi heyət adından Ali Məclisin Sədrinə xatirə hədiyyəsi təqdim etmişdir.

Kursant Kəmaləddin Musayev təhsil ocağının rəmzi kötüyünə xatirə lövhəsi vurmuş, orkestrin müşayiəti ilə "Hərbi Lisey marşı" ifa edilmiş, şəxsi heyət təntənəli marşın sədaları altında nizami addımlarla tribunanın önündən keçmişdir.

Ali Məclisin Sədri kursantlarla xatirə şəkli çəkdirmişdir.

Sonra Ali Məclisin Sədri Hərbi Liseydə tədrisin keyfiyyəti və xidmətin təşkili ilə maraqlanmış, kursantlarla birlikdə nahar etmişdir.

10 illiyini qeyd edən Heydər Əliyev adına Hərbi Liseyə yeni xidməti avtomobil hədiyyə olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Jurnalistlər arasında keçirilən yaradıcılıq müsabiqəsinin qalibləri mükafatlandırılıb

*İyunun 17-də Naxçıvan şəhərindəki Gənclər Mərkəzində 15 İyun – Milli Qurtuluş Günü münasibətilə jurnalistlər arasında keçirilən yaradıcılıq müsabiqəsinin qalibləri mükafatlandırılmışlar.*





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev tədbirdə çıxış edərək demişdir ki, müsabiqənin keçirilməsində əsas məqsəd kütləvi informasiya vasitələri nümayəndələrinin, xüsusilə muxtar respublikanın televiziya, radio və qəzetlərində çalışan gənc əməkdaşların ümummilli liderimizin siyasi irsinin təbliği istiqamətindəki fəaliyyətinin stimullaşdırılmasından ibarətdir. Yaradıcılıq müsabiqəsinə, ümumilikdə, 40-a yaxın televiziya və radio verilişləri, qəzet məqalələri təqdim edilmişdir. Hazırlanan materiallar iyun ayının 1-dən 15-nə qədər olan müddətdə muxtar respublika kütləvi informasiya vasitələrində tamaşaçılara və oxuculara təqdim olunmuşdur.

Qeyd olunmuşdur ki, bu gün muxtar respublikada ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan dövlət gənclər siyasəti uğurla icra olunur, milli ruhlu, vətənpərvər gənclər yetişdirilir. Eyni zamanda yaradıcı gənclərin istedadının üzə çıxarılması, onların fəaliyyəti üçün lazımi şəraitin yaradılması diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında" 2012-ci il 31 yanvar tarixli Fərmanı muxtar respublikada gənclərə göstərilən yüksək diqqət və qayğının daha bir ifadəsidir. Muxtar respublikada "Gənc İstedadların "Qızıl kitabı"nın təsis edilməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun yaradılması gənclərin cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsi istiqamətində atılan mühüm addımlardır. Bu gün gənc jurnalistlərin əməyinin yüksək qiymətləndirilməsi də bu sahədə həyata keçirilən tədbirlərin davamıdır.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublikası Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin sədri Azad Cabbarov, Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Sahil Tahirli, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin baş məsləhətçisi Ülvi Hüseynli, "Şərq qapısı" qəzetinin baş redaktoru Tural Səfərov çıxış edərək muxtar respublikada həyata keçirilən dövlət gənclər siyasətindən, kütləvi informasiya vasitələrinin fəaliyyəti üçün yaradılan şəraitdən danışmışlar.

Sonra müsabiqənin qalibləri elan olunmuşdur.

"Şərq qapısı" qəzetinin əməkdaşı Elnur Kəlbizadə birinci, Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin əməkdaşı Əhməd Əhmədov ikinci, "Şərurun səsi" qəzetinin redaktoru Elman Məmmədov üçüncü yerə, "Naxçıvanın səsi" radiosunun əməkdaşı Yaqub İsayev isə həvəsləndirici mükafata layiq görülmüşdür. Qaliblərə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun diplomları və pul mükafatları təqdim olunmuşdur.

Qaliblərdən Elnur Kəlbizadə, Əhməd Əhmədov və Yaqub İsayev çıxış edərək əməklərinə verilən yüksək qiymətə görə minnətdarlıqlarını bildirmiş, bundan sonra da ümummilli liderimiz Heydər Əliyevin yoluna sadiq qalacaqlarını, muxtar respublikamızın və ölkəmizin tərəqqisi və inkişafı naminə səylə çalışacaqlarını vurğulamışlar.

**"Şərq qapısı"**

18 iyun İnsan Hüquqları Günüdür

# Muxtar respublikada insan hüquqları etibarlı şəkildə qorunur

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2007-ci il iyunun 18-də “Azərbaycan Respublikasında İnsan Hüquqları Gününün təsis edilməsi haqqında” Sərəncam imzalamışdır. Həmin sərəncama əsasən, hər il iyunun 18-i ölkəmizdə “İnsan Hüquqları Günü” kimi qeyd edilir.***

Ölkəmizdə insan və vətəndaş hüquqlarının qorunması ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər tərəfindən həyata keçirilən hüquqi islahatlar dövlətçiliyimizin möhkəmləndirilməsinə, sabitliyin yaranmasına və bununla da, cəmiyyətimizin gələcək inkişafında insan hüquq və azadlıqlarının müdafiəsinə yönəlmiş yeni hüquq sisteminin formalaşmasına real şərait yaratmışdır. Ulu öndərimizin 1993-cü ildən tətbiqinə moratorium qoyduğu ölüm hökmü 1998-ci ildə tamamilə ləğv edilmiş, bununla da, Azərbaycan Respublikasının adı Şərqdə ölüm hökmünü ləğv edən ilk ölkə kimi tarixə düşmüşdür. Bu, ölkəmizin hələ Avropa Şurasına üzv qəbul olunmadığı dövrlərdə insan hüquqları sahəsində atılan ən mütərəqqi addımlardan biri idi. Azərbaycan BMT-nin İnsan Hüquqları Ümumi Bəyannaməsinə və digər beynəlxalq konvensiyalara da qoşulmaqla insan hüquqları sahəsində beynəlxalq miqyasda təsbit olunmuş prinsiplərə sadiqliyini nümayiş etdirmişdir.

1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasında insan hüquq və azadlıqlarının təminatı dövlətin ali məqsədi kimi ön plana çıxmışdır. Konstitusiyada öz əksini tapmış bu strateji məqsəd, ilk növbədə, hüquq islahatları və insan haqlarının qorunması prinsipinin tətbiqini zəruri etmişdir. Azərbaycan Respublikasının Konstitusiyasında insan hüquq və azadlıqlarına geniş yer verilməsi ilə Azərbaycan demokratik, hüquqi və dünyəvi dövlət olaraq insan hüquqlarına böyük önəm verdiyini bir daha nümayiş etdirmişdir. Belə ki, Əsas Qanunumuzun III fəslinin insan və vətəndaş hüquq və azadlıqlarına həsr edilməsi ölkəmizdə bu sahənin prioritet məsələ olduğunu bir daha sübut edir.

Ulu öndər Heydər Əliyevin 1996-cı il 21 fevral tarixli Sərəncamı ilə yaradılmış Hüquqi İslahat Komissiyası ölkədə həyata keçirilən hüquqi islahatların geniş vüsət almasına təkan vermişdir. Komissiya tərəfindən işlənib hazırlanmış “Konstitusiya Məhkəməsi haqqında”, “Məhkəmələr və hakimlər haqqında” qanunlar məhkəmə sisteminin yaradılmasına və fəaliyyət göstərməsinə, insan hüquq və azadlıqlarının müdafiəsi məqsədilə məhkəmə hakimiyyətinin müstəqil fəaliyyətinə imkan yaratmışdır.

1998-ci il fevralın 22-də ümummilli lider Heydər Əliyev “İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında” Fərman imzalamış, bu mühüm sənəddə insan hüquqlarının təminatı sahəsində həyata keçirilən tədbirlərin mahiyyəti və konsepsiyası dəqiq müəyyənləşdirilmişdir. İnsan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq məqsədilə ulu öndər Heydər Əliyevin 1998-ci il 18 iyun tarixli Sərəncamına əsasən, “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı” təsdiq olunmuşdur. Ötən müddət ərzində dövlət proqramında nəzərdə tutulmuş tədbirlər uğurlu həllini tapmış, ölkəmizin beynəlxalq təşkilatlarla əməkdaşlığı daha da genişlənmiş, respublikamız bir sıra beynəlxalq müqavilələrə qoşulmuş, yeni məhkəmə sistemi formalaşmış, konstitusion nəzarət mexanizmi olan Konstitusiya Məhkəməsi yaradılmış, 2001-ci il dekabrın 28-də “Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Konstitusiya Qanunu qəbul edilmiş, ölkəmiz üçün yeni bir qurum olan Müvəkkil təsisatı yaradılmış, hüquq-mühafizə orqanlarının fəaliyyəti təkmilləşdirilmişdir.

“Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında” 2002-ci il 24 dekabr tarixli Azərbaycan Respublikasının Konstitusiya Qanunu ölkəmizdə insan hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində həyata keçirilən hüquqi islahatların və milli qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması prosesinin məntiqi davamı kimi çox mühüm əhəmiyyət kəsb etmişdir. Bu qanun həmçinin Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsi vəziyyətini “İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında” Avropa Konvensiyasına uyğunlaşdırılması məqsədi daşımışdır.

Bu gün Azərbaycanda insan hüquq və azadlıqlarının qorunması işi dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. ***“Biz ölkəmizdə demokratiyanın, insan hüquqlarının inkişafına və qorunmasına çox böyük əhəmiyyət veririk”***, – deyən Prezident İlham Əliyevin 2006-cı il dekabrın 28-də imzaladığı “Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı” insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə, dövlət və vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına səbəb olmuşdur. Yeni çağırışların və cəmiyyətimizin inkişafından irəli gələn tələbatların nəzərə alınması baxımından Milli Fəaliyyət Planı insan hüquqlarının təmin olunması üzrə görülən ardıcıl tədbirlərin genişləndirilməsində, hüquq müdafiə mexanizmlərinin təkmilləşdirilməsində, əhalinin müxtəlif qruplarının hüquqlarının qorunmasında yeni mərhələnin başlanğıcı olmuşdur.

Hüquqi, demokratik dövlət quruculuğunun ən mühüm amili olan insan hüquq və azadlıqlarının müdafiəsinin təmini ilə bağlı ölkəmizdə həyata keçirilən islahatlar Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilməkdədir. Son illər hüquq institutlarının təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi mexanizmlərinin və ədalət mühakiməsinin səmərəliliyinin artırılması, əhalinin yüksəkkeyfiyyətli hüquqi yardımla təmin edilməsi istiqamətində geniş tədbirlər həyata keçirilmişdir. Muxtar respublikada insan hüquq və azadlıqlarının yeni müdafiə mexanizmi olan Müvəkkil təsisatı yaradılmış, penitensiar xidmətin infrastrukturu təkmilləşdirilmiş, hər bir vətəndaşın öz konstitusion hüquq və qanunla qorunan mənafelərinin həyata keçirilməsi, o cümlədən əhalinin yüksəkkeyfiyyətli hüquqi yardımla təmin edilməsi məqsədilə vəkillik institutunun hüquqi statusu müəyyənləşdirilmiş və bu institut inkişaf etdirilmişdir. Ölkə Prezidentinin “Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında” 2006-cı il 2 noyabr tarixli Fərmanı muxtar respublikada hüquq institutlarının inkişafında müstəsna rol oynamışdır.

Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində muxtar respublikada hüquq institutlarının inkişaf etdirilməsi, o cümlədən məhkəmə orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm işlər görülür. 2011-ci il dekabr ayının 29-da keçirilən dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dördüncü sessiyasında “Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda müvafiq dəyişikliklər edilmiş, ölkəmizin qoşulduğu “İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya”nın Fakültativ Protokolunda nəzərdə tutulmuş preventiv mexanizmin funksiyalarını və informasiya sahibi olan dövlət orqanlarının, yerli özünüidarə orqanlarının və vəzifəli şəxslərin “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikası Qanunundan irəli gələn vəzifələri Naxçıvan Muxtar Respublikasında yerinə yetirməsinə nəzarəti həyata keçirən təsisat qismində Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) müəyyən edilmişdir.

***Ölkəmizdə insan hüquq və azadlıqlarının qorunması istiqamətində həyata keçirilən tədbirlər davamlı xarakter almışdır. Çünki insan hüquqlarının təmini istiqamətində görülən işlər vətəndaş cəmiyyəti quruculuğu prosesinin əsas şərtidir. Bu gün Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında hüquqi-siyasi sahədə aparılan islahatlar həm də insan hüquq və azadlıqlarının etibarlı qorunmasına xidmət edir.***

**Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının mətbuat xidməti**

# Naxçıvan haqqında təəssüratlar

***“Şərq qapısı” qəzeti xarici ölkə vətəndaşlarının Naxçıvan Muxtar Respublikası haqqındakı səfər qeydləri ilə öz oxucularını tanış edir. Bu rubrika əcnəbi vətəndaşların, mütəxəssis və səyyahların düşüncə və yol qeydləri ilə ilk növbədən tanış olmaq imkanı yaradır. Bugünkü nömrədə Rusiya vətəndaşı Roman Ustinovun sosial şəbəkələrdə yayılmış “Naxçıvan haqqında təəssüratlar” adlı yazısını oxuculara təqdim edirik.***

Bütün türk-erməni-azərbaycanlı konfliktlərinə görə, Naxçıvandan İrəvana aparan yol 500 kilometrdən ibarət olub, üç sərhəddən: Azərbaycan-Türkiyə, Türkiyə-Gürcüstan və Gürcüstan-Ermənistan sərhədlərindən keçir. Bu gün Türkiyədə, Qarsın yaxınlığında gecələyirəm. Türklər yenə də məni zorla yedirtdilər. Yol çantamı da doldurdular.

Naxçıvan yaxşı yerdir. Hamıya məsləhət görürəm! Naxçıvan nədir axı? Naxçıvan, ehtimal olunduğu kimi, gözəl bir yerdir. Azərbaycanlılar da türklər kimi, iranlılar kimi, gürcülər kimi qonaqpərvərdirlər... Burada səyyah üçün pul çox da vacib bir şey deyil: üç gün çox çalışdım ki, onları xərcləyim və baxmayaraq ki, bir növ, burada hər şey bahadır, amma cəmi-cümlətanı 20 dollar xərcləmiş oldum. Axı burada hamı səni pulsuz-parasız daşıyır, yedirib-içirir, qonaq edir... Ümumiyyətlə, pullarım yalnız dondurmaya və Naxçıvan-Ordubad qatarındakı gedişə xərcləndi.

Avtovağzalda düşən kimi (Türkiyə tərəfdən gəlirdik) yol yoldaşlarım məni dərhal evlərinə qonaq dəvət etdilər. Ümumiyyətlə, burada hər şey yaxşıdır və pulsuzdur. Heydər Əliyev hətta muzeyləri də pulsuz edibdir. Muzeylər tər-təmizdir və paytaxtda yerləşir. Onlar bir-birinin yaxınlığında yerləşdiyindən və pulsuz olduğundan bir gün ərzində hamısına baş çəkmək olar. Heydər Əliyevin əksi olan xalçalardan ibarət muzey də yaratmaq olardı, lakin hələlik bu haqda fikirləşməyiblər.

Başqa bir maraqlı şey haqqında. Azərbaycanın digər ərazisində necə olduğunu mən bilmirəm, amma Naxçıvan Muxtar Respublikasında hər bir turistə (öz istəyi ilə) Turizm Nazirliyindən bir bələdçi təhkim oluna bilər. O, bu turisti gəzdirəcək, Naxçıvanla tanış edəcəkdir. Çox əlverişlidir! Bunlar turizm hissəsinə aid olanlardır.

Ümumilikdə, şəhərlər tərtəmizdir, səliqə-sahmanlıdır, gözəldir. Burada xeyli fontanlar, qazonlar vardır. Xüsusi iş forması geyinmiş insanlar isə bu fontanlara, qazonlara qulluq edir, onları suvarır, təmizləyirlər. Cinayət hadisələri sıfra bərabərdir. Maşının qapısını bağlama, orada da sənin çantan olsun, kimsə götürməz.

Naxçıvanın balkonları da maraqlıdır. Onlar bir-birinin üstündə, evlərdən bir neçə metr qabağa çıxmış halda tikilibdir. Bəzi sovetdənqalma evlər dövlət tərəfindən elə gözəl bərpa olunubdur ki, onların “xruşovka” olduğuna inanmaq çətindir. Şəhərdə Şahmat Mərkəzi də vardır. Üç gün bundan əvvəl burada şahmat üzrə keçirilən beynəlxalq turnir başa çatmışdır. Ümumiyyətlə götürdükdə, Naxçıvan şəhəri Elista və Aşqabadın sanki hibrididir.

Naxçıvan Muxtar Respublikası təkcə Naxçıvan şəhəri ilə tanınmır. Üç gün ərzində mən Culfa və Ordubadda da oldum. Ordubad 3 ölkənin: Ermənistan, İran və Azərbaycan sərhədlərinin qovuşduğu yerdədir.

Naxçıvanda bir dəfə də olsun, küçədə gecələməmişəm: həmişə qarşıma çıxan ilk adam məni evinə dəvət edibdir.

Azərbaycan polislərinin və təhlükəsizlik orqanları əməkdaşlarının qəzəbli olması haqqında danışılanda ədalət naminə qeyd etməliyəm ki, heç kim mənə şəkil çəkməyi qadağan etmədi, sənədlərimi bir dəfə də olsun, alıb yoxlamadılar. Azərbaycanın qalan ərazisində necə olduğu mənə bəlli deyil.

Bəxtiyar Naxçıvandayam. Deyilənə görə, buraya nə vaxtsa Nuh Peyğəmbər öz gəmisiylə düşübdür. Mən də buraya düşdüm. Pasportumdakı erməni ştamplarına heç nə deməyən Azərbaycan sərhədçiləri məni buraxdılar. Görünür, mənim tatar görünüşüm və bəzi türk-Azərbaycan sözlərini bilməyim onların narahat olmasına əsas verməmişdi. Bura çox təmiz, ərkanlı, gözəl, qonaqpərvər bir yerdir.

**Ustinova Naxçıvan haqqında verilən suallar:**

*1. Orada hansı yük maşınları və avtobuslar vardır?*

*2. Azərbaycan Ermənistan və Gürcüstandan daha firavan görünürmü?*

*3. Polislər narahat etmirlər ki? Bəzi səyyahlar yerli polisləri xoş sözlərlə xatırlamırlar.*

**Ustinovun cavabı:**

*1) liazlar, kamazlar, demək olar ki, hərəkətdədir, əksəriyyəti saz vəziyyətdədir, hətta zaporojestlər də.*

*2) bəli, daha firavan görünür. Mən indi İrəvandayam, deməli, müqayisə etməyə nə isə vardır. İrəvanda hər şey başınadır, yarımçıqdır, küçələr zibillidir. Bir yığın sovetdənqalma yarımçıq tikililər mövcuddur. Naxçıvan şəhərində (Azərbaycanın qalan ərazisində necə olduğunu bilmirəm. Çünki oralarda olmamışam. Lakin belə düşünürəm ki, heç nə buradakından pis deyil), rayonlarda çoxlu güllüklər, fontanlar mövcuddur. Bunlara da onlarla, yüzlərlə işçilər – süpürgəçilər, xadimələr, bağbanlar və başqaları qulluq edirlər. On il bundan əvvəl adamlara şəhər yerində mal-heyvan saxlamaq qadağan edilib ki, bu da şəhərin çirklənməsinin qarşısını alıb, kolların və çiçəklərin qorunub saxlanılmasına imkan verib.*

*3) polislər narahat etmədi, heç bir dəfə də olsun.*

**Naxçıvanın balkonları**

Naxçıvan şəhərində – Azərbaycanın Naxçıvan Muxtar Respublikasının paytaxtında – maraqlı balkon arxitekturasını müşahidə etmək mümkündür. Heç də balkonların hamısının eni eyni olmur. Ədalət naminə qeyd edim ki, dövlət proqramı əsasında yenidən qurulmuş sovetdənqalma binalar pis alınmayıb: budur, gözəl bir ev balkonlu bir evlə yanaşıdır. Ümumiyyətlə, Naxçıvana ən azından bu balkonlara baxıb ləzzət almaq üçün gəlmək lazımdır.

**Roman USTİNOV**
***səyyah***

***Həqiqəti əks etdirməyən, yalan və böhtanla dolu qərəzli məlumatlar yayan müxalifət mətbuatı bu yaxınlarda Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Ləkətağ kəndinin guya ermənilər tərəfindən hücuma məruz qalması və kəndin boşaldılması barədə informasiya yaymışdı. “Şərq qapısı” qəzetinin əməkdaşı həmin kənddə olmuş, bu yaşayış məskəninə heç bir hücum edilmədiyini və kəndin boşaldılması barədə xəbərin qərəzli xarakter daşıması, bunun kənd sakinlərini hiddətləndirməsi barədə informasiyanı canlı olaraq müxtəlif kütləvi informasiya vasitələrinə göndərmişdir. Kənd sakinləri onlara hər hansı xəbərdarlığın edilmədiyini, kəndin öz sakit həyatını yaşadığını bildirmişdilər. ANS Şirkətlər Qrupunun vitse-prezidenti Mirşahin Ağayevin müxalifət mətbuatının hay-küy kampaniyası ilə bağlı şərhini oxuculara təqdim edirik.***

# Təxribatçıların son diversiya həmləsinin ünvanı Naxçıvan Muxtar Respublikası oldu



Dövlət başçısı açıq mətnlə məmuru öz ölkəsinə sədaqətə dəvət edir. Ardınca isə dövlətə etibarlılığı şübhə doğuran bir neçə məmur işdən kənarlaşdırılır. Amma təhlükə bu gün də tam sovuşmayıb. Bəzi məqamlarda isə daha intensiv və ekstensiv şəkil alıb. Məsələn, son zamanlar Azərbaycanın nüvəsini sarsıtmağa yönəlik təxribatçı addımlar atılır: Azərbaycanın Müdafiə Nazirliyinə, orduya qarşı. Müdafiə nazirinin etibardan, gözdən salınmasına yönələn məqsədyönlü hərəkətlər. Bu istiqamətdə edilən son diversiya həmləsinin ünvanı isə Naxçıvan Muxtar Respublikası oldu. Özü də məlumatı nə qədər əcaib olsa da, Ermənistan və ya başqa bir maraqlı dövlət yox, elə özümüzünkülər, bizimkilər yaydı. Hansısa hücum əməliyyatından bəhs edildi, hansısa el dostu həkimlərdən çarə axtarıldı. Ağ, daha doğrusu, qapqara yalanlar! Heç bir səviyyədə təsdiqini tapmayan, başdan-ayağa cəfəngiyat. Qəsdən rəy yaratmağa hesablanmış təbliğat. Elə buna görə də günü sabah Azərbaycanda əsgər ölümü, ümumiyyətlə, cəmiyyətdə panika yaratmağa yönəlik xəbərləri aktuallaşdıran, pasifist meyilləri qabardanların fəallaşmasını görsəm, əsla təəccüblənmərəm. İnformasiya diversiyalarının çeşidi müxtəlif olur. Məsələn, Rusiya nazirləri bu yaxınlarda öz dövlətlərinin maraqlarına uyğun şayiələr yaymışdılar və bu da, təbii ki, səbəbsiz deyildi. Ssenari eyni idi. Hər ikisi canlı və sonrakı peşmançılıq və ya atılan daş. Amma elə saytlar var ki, bu gün də həmin xəbərləri elə baş xəbər yerinə asmaqdadır. Dövlət isə gərək zəif olmasın. O, belə halların qarşısını ən qəddar şəkildə almalı, qanunun sərt üzünü göstərməlidir. Bundan ötrü Daxili İşlər Nazirliyi var, Milli Təhlükəsizlik Nazirliyi var və yəqin ki, onların əməliyyat şəraitinin nəzarətdə olmasını sübut edən tutarlı arqumentləri var. Şərait demişkən. Cənablar, sizə elə gəlmirmi, Azərbaycanda müharibə şəraitini hələ heç kim ləğv etməyib?! Belə şəraitdə isə dövlət və tənqid, Vətən və xəyanət arasında sərhəd çox şəffaf olur.

Axtarışlar, tapıntılar

# Kəngərli süvarilərinə verilmiş fəxri bayrağın müsəlman qoşunlarının hərbi yürüş atamanı Ehsan xanın sarayına köçürülməsi haqqında

***Gürcüstan Milli Arxivinin zəngin fondlarından biri olan "Qafqaz canişinin dəftərxanası"nda 1845-1858-ci illərə aid qiymətli sənədlər saxlanılır. Qeyd edək ki, bu fondda Naxçıvana və onun hərbçi Kəngərli süvari qoşunlarına aid çoxlu sənədlər vardır. Bunlardan biri Kəngərli süvarilərinin döyüş hünərlərinə görə Rusiya çarı tərəfindən verilmiş fəxri bayraq haqqındadır. 12 səhifədən ibarət olan bu tarixi sənəd 23 fevral 1845-ci ildən yazılmağa başlanmış və həmin ilin 13 iyununda tamamlanmışdır. Sənəd məxfi şöbəyə aiddir.***



Kəngərli süvari dəstəsinin fəxri bayrağı



Kəngərli süvarilərinin döyüş bayrağı



Naxçıvan bəy drujinasının döyüş bayrağı (arxa tərəfi)



Naxçıvan bəy drujinasının döyüş bayrağı

General-mayor I Ehsan xan I Kalbalı xan oğlu Qafqaz canişinliyinə məktub yazaraq xahiş edir ki, Naxçıvan şəhərinin qəza idarəsində fəxri qarovulun nəzarətində saxlanılan Kəngərli bayrağının onun sarayında saxlanmasına icazə verilsin. Yuxarıda adını çəkdiyimiz arxiv sənədi bu haqda yazışmalardan ibarətdir. Sənədlər rus dilində yazılmışdır. Onların Azərbaycan dilindəki tərcüməsini verməzdən əvvəl qeyd edək ki, bu bayraqların diqqətlə araşdırılması vacibdir. Çünki bu bayraqlarda olan rəng və rəmzlər Naxçıvan xanlığının bayraqlarından götürülmədir.

Araşdırmalardan məlum oldu ki, bayrağın I Ehsan xanın sarayına köçürülməsinə rəhbərliyi Qafqaz canişini Knyaz Mixail Semyonoviç Vorontsov (1782-1856) özü etmişdir.

General-feldmarşal Knyaz M.S.Vorontsov çar Rusiyasının görkəmli dövlət xadimlərindən olmuşdur. İngiltərədə təlim-tərbiyə görmüş M.S.Vorontsov 1804-cü ildən Rusiya ordusunda hərbi xidmətə başlamışdır. 1803-cü ildə Gəncənin işğalında, eləcə də İmeretidə ləzgilərə divan tutulmasında və İrəvan xanlığının işğalında iştirak edən knyaz 1844-cü ildə Qafqaza canişin təyin edilmişdir.

1845-ci ilin 23 aprelində Tiflisdə yerləşən baş qərargahın rəsmi məktubunda I Ehsan xanın xahiş məktubu haqqında məlumat verilir.

Aprelin 24-də Naxçıvan Qəza İdarəsinin rəisinə göndərilən 44 №li məktubda qəza idarəsində saxlanılan Kəngərli süvarilərinə məxsus fəxri süvari bayrağının I Ehsan xanın sarayına aparmaq vəzifəsinin İranda rəsmi səfərdə olan polkovnik Qaqarinə həvalə olunduğu bildirilir.

Belə mətnli bir məktub Rusiyanın Qafqazdakı qoşunlarının baş komandanının köməkçisi knyaz Qaqarinə də göndərilib. Bu məktubun sonunda qeyd edilən bir cümlə I Ehsan xanın xahiş məktubunun nüfuzunun çox yüksək olduğunu göstərir: *"Ehsan xana mənim məktubumu və hədiyyəmi təqdim edin və ona mənim ehtiramımı bildirin".*

Qafqazdakı Rusiya qoşunlarının baş komandanının qvardiya polkovniki knyaz Qaqarinə 25 aprel 1845-ci ildə yazdığı 39 №li məktub maraqlıdır: *"Mərhəmətli padşahın Kəngərli tayfasına bağışladığı fəxri bayraq indiki Naxçıvan Qəza İdarəsində saxlanılır. Müsəlman qoşunlarının hərbi-yürüş atamanı, general-mayor Ehsan xan xahiş edir ki, bu bayraq onun sarayına gətirilsin.*

*Ona görə də siz İrandan qayıdanda həmin bayraq təntənəli surətdə Ehsan xanın sarayına aparılsın. Təntənəli köçürülmə başa çatandan sonra mənə bildirin".*

Naxçıvan Kəngərlilərinə Rusiya çarı I Nikolay tərəfindən bağışlanmış fəxri bayraq I Ehsan xanın yaşadığı saraya təntənə ilə aparıldıqdan sonra onun Qafqaz canişini qraf Mixail Semyonoviç Vorontsova yazdığı təşəkkür məktubu da bu sənədlərin içərisindədir. Ehsan xan ona göstərilən etimaddan, hədiyyələrdən və Kəngərlilərə məxsus bayrağın onun sarayında saxlanmasına icazə verildiyindən çox razı olduğunu bildirir. Məktub 1845-ci il iyunun 1-də Naxçıvanda yazılmış və sonda I Ehsan xanın şəxsi möhürü və imzası ilə təsdiqlənmişdir.

Kəngərlilərə məxsus fəxri döyüş bayrağının təntənəli mərasimlə Ehsan xanın sarayına köçürülməsi başa çatdıqdan sonra Gürcü İmeretinin mülki qubernatoru 12 iyun 1845-ci il tarixli məktubla (№ 607) Qafqaz canişini, Novorossiyskinin və Bessarabiyanın general-qubernatoru M.S.Vorontsova məlumat vermişdir: *"Naxçıvan Qəza İdarəsinin rəisi vəzifəsini icra edən şəxs mənə məlumat verir ki, əlahəzrət çarın 1831-ci ildə Kəngərli süvarilərinə mükafat olaraq bağışladığı bayraq indiyədək bizim idarədə saxlanılırdı. Sizin aprel ayının 24-də imzaladığınız əmrə uyğun olaraq, həmin bayraq ötən ayın 14-də qəza idarəsinin rəisinin və sizin yavəriniz polkovnik knyaz Qaqarinin iştirakı ilə təntənəli surətdə hərbi-döyüş atamanı, general-mayor Ehsan xanın sarayına aparılmışdır. Bayraq onun sarayında saxlanılacaqdır.*

*Bütün bunlar haqqında məlumat verməyi özümə borc bilirəm.*

*İmza: general-qubernator"*

**Müəllifin şərhi:**

Milli Azərbaycan Tarixi Muzeyində müstəqil dövlətçiliyimizin rəmzi olan müxtəlif xarakterli bayraqlar saxlanılır. Bayraqların da öz taleyi olmuşdur. Onlar da əsir aparılmış, oğurlanmış, sürgün edilmiş, hətta dustaq da saxlanmışdır. Son illərdə yazılan bəzi monoqrafiyalarda Naxçıvanın Kəngərli süvarilərinə məxsus bayraqlar qarışıq salınır. Ona görə də biz yenidən Milli Azərbaycan Tarixi Muzeyində axtarışlar apardıq. Muzeyin bayraqşünasları "Azərbaycan bayraqları" kataloqunu çapa hazırlayarkən çox ciddi araşdırmalar aparmışlar. Biz də həmin kitab-kataloqdan istifadə edərək Kəngərli süvarilərinin 1830-cu ildən sonra aldıqları bayraqlar haqqında məlumatları dəqiqləşdirdik.

Qafqaz Hərbi Tarix Muzeyinin "Bələdçi" kitabındakı məlumatlardan aydın olur ki, atlı-müsəlman alaylarına rus ordusu tərkibində hünərlə döyüşdüklərinə görə 1830-cu ildən etibarən yeni fəxri bayraqlar verilmişdir.

Çar hökuməti tərəfindən Naxçıvanın Kəngərli süvari dəstəsinə də fəxri bayraqlar verilmişdir.

Əvvəlcə qeyd edək ki, dördüncü atlı-müsəlman alayı İrəvan və Naxçıvan müsəlman-azərbaycanlı əhalisindən təşkil edilmişdi. Bu alayın da döyüş bayrağı digər atlı-müsəlman alaylarına verilən bayraqlar kimidir. Əsas fərqləndirici əlamət bayrağın qumaşının mavi rəngdə olması, aşağıdakı lentdə isə fars dilində "dördüncü alay" sözlərinin yazılmasından ibarətdir.

Həmin bayraq Milli Azərbaycan Tarixi Muzeyində saxlanılır (inventar № 456). Bilirik ki, Kəngərli süvarilərinin fəaliyyəti çox qədimlərə gedib çıxır. Əldə edilən sənədlərə görə, Naxçıvanın Kəngərli süvariləri Səfəvilər dövlətində yüksək döyüş hünər və qabiliyyətlərinə görə xüsusi nüfuza malik olmuşlar. 1830-cu ildə Kəngərli tayfasının başçıları bu hünər və qabiliyyətlərinə görə rus komandanlığına müraciət edirlər ki, Kəngərli Süvari Alayı yaradılsın. Qafqaz Hərbi Tarix Muzeyinin "Bələdçi" kitabındakı məlumata görə, *"Kəngərli süvariləri bütün Şərqdə özlərinin igidlikləri ilə şöhrət qazanmışdılar. Ölümdən qorxmadıqlarını nümayiş etdirmək üçün döyüşə gedərkən düşmən onları uzaqdan görsün deyə atlarının boynuna qırmızı kapor taxarmışlar".*

Naxçıvan Kəngərlilərinin əvvəlki döyüşlərdə mərdliklə vuruşduqlarını nəzərə alan rus komandanlığı Kəngərli süvari dəstəsini yaratmağa icazə verir.

Naxçıvanın Kəngərli süvarilərinə məxsus döyüş və fəxri bayraqlar hazırda Milli Azərbaycan Tarixi Muzeyinin "Yeni və ən yeni tarix" fondunda saxlanılır.

Naxçıvanın Kəngərli süvarilərinin döyüş bayrağı (inventar № 458) digər atlı-müsəlman alaylarının bayraqlarından öz yaşıl rəngi və bəzi elementləri ilə fərqlənir. Qanovuz ipək parçalardan olan dördkünc bayrağın ölçüləri 134 sm x128 sm-dir. Bayrağın üzərində təsvir edilmiş qartal bir qədər sxematikdir. Qartalın sinəsindəki qalxan boz rəngdədir, caynaqlarındakı top lülələrinin təsviri də şərtidir. Digər alay bayraqlarından fərqli olaraq, bu bayrağın yuxarı kənarında verilmiş ərəbdilli yazı lent üzərində deyil, bayraq parçasının üstündə əks olunmuşdur: *"Xeyirxahlıq xeyirxahlıqla mükafatlandırılır. Ədalətli sultan Allahın yerdə kölgəsidir. Əl-Murad Kəngərli".* Bu Murad xan I Kalbalı xanın ulu babasıdır. Ciddi axtarışlar nəticəsində müəyyən olundu ki, I Kalbalı xanın atası Böyük Ehsan xan Murad xanın nəticəsidir. Deməli, bu döyüş bayrağındakı elementlərin əksəriyyəti və Murad xanın sözləri sırf Naxçıvan Kəngərlilərinə məxsusdur. Bayrağın ağacı qara rənglidir.

Naxçıvanın Kəngərli süvari dəstəsinin fəxri bayrağı (bayrağın ölçüləri 158 sm x 140 sm) yaşıl rənglidir. Qanovuz ikiqat ipək parçadan tikilmişdir. Bu bayrağın ortasında qızılı çələnglə əhatə olunmuş ikibaşlı qartal ağ fondadır. Bayrağın üst ucluğu sarı, qotazları və alt ucluğu digər fəxri alay bayraqlarındakı kimidir. Bu fəxri bayraq Ehsan xanın sarayına aparılan bayrağın nümunəsidir. Rusiyalı tarixçi Oleq Kuznetsovun yazdığına görə, bu fəxri bayraq Sankt-Peterburqdakı hərbi muzeydə nümayiş etdirilir.

1854-cü ilin iyun ayında Krım (Şərq) müharibəsində Çınqıl yüksəkliklərində gedən döyüşlərdə göstərdiyi qəhrəmanlığına görə II Kalbalı xan Naxçıvanski-Kəngərli 4-cü dərəcəli "Müqəddəs Georgi" ordeni ilə təltif edilmişdir. Elə həmin il Rusiya çarı I Nikolay şəxsən II Kalbalı xanın adına döyüş bayrağı göndərmişdir.

Bayraq qumaşı (145 sm x 120 sm) dördkünc mavi qanovuz ipəyindəndir. Bu bayraq Naxçıvan bəy drujinasının döyüş bayrağıdır (inventar № 468). Bayrağın üz və arxa tərəflərində təsvirlər və yazılar vardır.

Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanın bütün yüzilliklərdə qəhrəmanlıq səhifələri yaratmış və içdiyi hərbi and son ana qədər sadiq qalmış Kəngərli süvarilərinə məxsus bu bayraqlar da tariximizdir. Bu bayraqların rəngləri və üzərində olan milli rəmzlər imkan verir ki, Naxçıvan xanlığına məxsus olan bayraqları da (heç olmasa təsvirlərini!) tapaq və müasir gəncliyimizə təqdim edək.

*Çünki dövrün, dövlətin və siyasi hadisələrin ən vacib əlamətlərini özündə əks etdirən bayraqlar tariximizdə mübahisəli məsələlərin açılması üçün əvəzsiz mənbədirlər.*

***Musa QULİYEV***
***tarix üzrə fəlsəfə doktoru***

# Məhdud fiziki imkanlı şəxslər və sağlamlıq imkanları məhdud uşaqlar müalicə üçün xarici ölkələrə göndərilib



***Muxtar respublikamızda məhdud fiziki imkanlı şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud uşaqların hüquqlarının təmin olunması, tibbi-sosial reabilitasiyalarının təşkili, onların respublika daxilində və ölkədən kənarda müalicələrinin təşkili daim diqqət mərkəzindədir. Bu günədək müvafiq kateqoriyadan olan 136 şəxsin xarici ölkələrdə müalicəyə göndərilməsi təmin edilib.***

Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq, iyunun 15-də məhdud fiziki imkanlı altı nəfər müalicə üçün Yunanıstan Respublikasının Saloniki şəhərində yerləşən Anagennisi Tibbi və Reabilitasiya Sanatoriyasına göndərilib. Onlar qeyd olunan sanatoriyada 28 günlük fizioterapevtik müalicə kursu keçəcəklər.

Eyni zamanda həmin gün serebral iflic xəstəliyi olan sağlamlıq imkanları məhdud 6 uşaq valideynlərinin müşayiəti ilə Latviya Respublikasının Yurmala şəhərində yerləşən Vayvari Milli Reabilitasiya Sanatoriyasına 20 günlük müalicə kursu keçmək üçün göndərilib.

Müalicəyə yola salınan məhdud fiziki imkanlı şəxslər, həmçinin uşaqların valideynləri göstərilən qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Tender elanı

İkinci Azərbaycan Kənd İnvestisiya Layihəsinin Naxçıvan Regional Əməliyyatlar Ofisinin əhatə etdiyi Şərur rayonunun Kürkənd icmasının tender komissiyası icma qrupunun hazırladığı "Yolun bərpası" adlı layihənin icrası məqsədilə keçirilən tenderdə iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir.

Tender komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

- *Maraq məktubu*
- *Nizamnamə*
- *Maddi-texniki baza və insan resursları barədə məlumat*
- *Son üç ildə icra etdikləri işlər haqqında məlumat*
- *Maliyyə vəziyyəti barədə arayış.*

Qeyd olunmuş sənədlər toplusunu 25 iyun 2014-cü il, saat $18^{00}$-ə kimi tender komissiyasına təqdim etmək lazımdır.

***Şərur rayonu, Kürkənd kəndi, tender komissiyası icma qrupunun sədri: Vəfadar Ələkbərov***
***Əlaqə telefonu: (050) 343-76-63***

### İtmişdir

İsmayılova Xəyalə Natiq qızının adına verilmiş ümumvətəndaşlıq pasportu itdiyindən etibarsız sayılır.

* * *

İsmayılov Zöhrab Natiq oğlunun adına verilmiş Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhərinin Bulqan kəndində yaşamış Bağırov Əli İsmayıl oğlunun adına olan JN-288 A inventar nömrəli, 10304005 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

### Allah rəhmət eləsin

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Rəyasət Heyətinin üzvləri və Mərkəzi Aparatın əməkdaşları Bioresurslar İnstitutunun elmi işçisi Namiq Abbasova, anası
**MƏRYƏM XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun direktoru Tariyel Talıbov və institutun əməkdaşları iş yoldaşları Namiq Abbasova, anası
**MƏRYƏM XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Naxçıvan Dövlət Universitetinin rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi universitetin dosenti Akif Mədətova, qardaşı
**VASİBİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin kollektivi komitənin sədri Valeh Vəliyevə, anası
**SƏXAVƏT XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Naxçıvan Muxtar Respublikası DövlətYerquruluşu, Geodeziya və Xəritəçəkmə Layihə İnstitutunun kollektivi Valeh Vəliyevə, anası
**SƏXAVƏT XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Naxçıvan Dövlət Universitetinin Dünya iqtisadiyyatı kafedrasının müdiri Asəf Qəribov və kafedranın əməkdaşları iş yoldaşları Akif Mədətova, qardaşı
**VASİBİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Naxçıvan Dövlət Universitetinin Mühasibat uçotu və maliyyə kafedrasının müdiri Mehdi Bağırov və kafedranın əməkdaşları iş yoldaşları Akif Mədətova, qardaşı
**VASİBİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Qurban Qurbanlı ailəsi ilə birlikdə Mirhəsən Eminova, əzizləri
**KUBRA, ÜMİD, UĞUR ƏLİYEVLƏRİN, HÜSEYN və GÜLLÜ HÜSEYNOVLARIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Naxçıvan Dövlət Tarix Muzeyinin kollektivi muzeyin direktoru Nizami Rəhimova, əmisi
**YUSİF RƏHİMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mirhəsən, Miryasin, Mirələkbər, Mircəfər, Mirnemət Eminovlar Mirzə Əliyevə, əzizləri
**KUBRA, ÜMİD, UĞUR ƏLİYEVLƏRİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Naxçıvan Dövlət Universitetinin İngilis dili kafedrasının əməkdaşları iş yoldaşları Mirhəsən Eminova, əzizləri
**KUBRA, ÜMİD, UĞUR ƏLİYEVLƏRİN, HÜSEYN və GÜLLÜ HÜSEYNOVLARIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**ŞƏRQ qapısı**

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Elnur Kəlbizadə

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 532